# Ölüm şahə qalxıb kişnəyən yerdə...



...İntiqamın Vətənə sonsuz məhəbbəti, elə-obaya bağlılığı və sevgisi doğma Köçəklidən başlamışdı. Təhsil aldığı orta məktəb şəhid Sərhəddin Rəhimovun adını daşıyırdı. Sərhəddindən başqa digər həmkəndliləri Ceyhun, Fəttah da Birinci Qarabağ savaşında şəhid olmuşdular. Böyük qardaşı Əlirza isə ağır yaralanmışdı. Kim bilir, bəlkə İntiqamın hərbçi olmaq istəyi düşməndən onların intiqam almaq hissindən yaranmışdı?! O, məktəbdə riyaziyyat fənnini yaxşı mənimsədiyinə görə hamıdan seçilirdi. Müəllimləri, bir parta arxasında oturduğu şagird yoldaşları, yaxınları İntiqamın riyaziyyatçı olacağını düşünsələr də, o öz taleyini şərəfli hərbçi peşəsinə bağladı. Həqiqi hərbi xidmətdən sonra Müdafiə Nazirliyinin "Gizir hazırlığı kursu"na qəbul olundu. Sevib-seçdiyi peşənin müqəddəsliyindən hər zaman qürur duydu. Hərbi təlimlərdə silah və texnikadan istifadə etməyi, döyüş taktikasını mükəmməl öyrəndi. Qızı Xədicə, oğlu Əli ataları ilə fəxr edirdilər. 2006-cı ildən İntiqam xidmətini Pereküşkül hərbi şəhərciyində davam etdirirdi. Piyadaların



Döyüş Maşınının (BMP) komandiri olan İntiqam Abbasov Azərbaycan Silahlı Qüvvələrinin yubiley medalları ilə təltif edilmişdi, 2016-cı ildə Aprel döyüşlərində şücaət göstərmişdi. Azərbaycan Silahlı Qüvvələrinin baş giziri kimi yaxasını "Qüsursuz xidmətə görə" III, II və I dərəcəli medallar bəzəyirdi... Allaha ibadət etdiyinə, namaz qıldığına görə xidmət etdiyi hərbi hissədə "Hacı" titulu qazanmışdı. Hər dəfə yolu doğma Köçəkliyə düşəndə İntiqam kənd qəbiristanlığında əzizlərinin və şəhidlərin məzarlarını bir-bir ziyarət edərdi. Ceyhun Yaqubov, Fəttah Şamıyev, 2000-ci ildə hərbi xidmətdə həlak olan Gülhüseyn Orucov... Baş daşları yan-yana olan Sərhəddin və Əli Rəhimovlar isə əmioğlu idilər. Əli 2014-cü ildə təmas xəttində baş verən döyüşlər zamanı həlak olmuşdu. Ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" III dərəcəli medal ilə təltif edilən Əlinin 19 yaşı vardı. İntiqam hər dəfə bu şəhid məzarlarının önündə dayanıb ruhlarına dua oxuyanda ürəyində düşmənə sonsuz nifrət hissi oyanardı...

**Qısa tanıtım:** *Baş gizir İntiqam Yavər oğlu Abbasov 1978-ci il sentyabrın 21-də Masallı rayonunun Köçəkli kəndində anadan olub. 1985-1996-cı illərdə Sərhəddin Rəhimov adına Köçəkli kənd tam orta məktəbində təhsil alıb. 1996-cı ildə həqiqi hərbi xidmətə çağırılıb. Hərbi xidmətdən sonra birillik gizir hazırlığı kursu keçərək müddətdən artıq hərbi qulluqçu kimi xidmətini davam etdirib. 6 il Naxçıvan Muxtar Respublikasında "N" saylı hərbi hissədə gizir rütbəsində tank komandiri kimi vəzifə borcunu yerinə yetirib. 2016-cı ilin Aprel döyüşlərində iştirak edib. 2017-ci ildə baş gizir rütbəsinə layiq görülən İ.Abbasov qüsursuz xidmətlərinə görə dəfələrlə diplomlar, fəxri fərmanlar və medallarla təltif edilib.*

*2020-ci il sentyabrın 27-də işğal altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda başlanan Vətən müharibəsi zamanı Füzuli və Cəbrayılın 7 kəndinin azad edilməsində sücaət göstərib. Sentyabrın 29-da cəsur gizir Füzulidə strateji yüksəkliklərdən birinin geri alınması zamanı aldığı qəlpə yarasından şəhid olub. Masallı rayonunun Köcəkli kəndində dəfn olunub.*

*Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə İntiqam Abbasov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib.*



### ƏGƏR ŞƏHİD OLSAM...

...Sentyabrın 24-də qızı Xədicənin Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarix-coğrafiya fakültəsinə daxil olması xəbərini eşidəndə İntiqam çox sevinmişdi. Ömrünün 23 ilini hərbi peşəyə həsr edən 42 yaşı baş gizir ilk övladının tələbə adını qazanması münasibətilə evində təşkil olunan qonaqlıq məclisində iştirak edən günün ailəsi ilə son görüş günü olacağını ağlına da gətirmirdi. Müəllimlik peşəsini seçən qızı Xədicəyə söz verdi ki, tezliklə məzuniyyətə çıxacaq, onu daxil olduğu ali məktəbə özü aparacaq, gedib-gələcəyi yolları öyrədəcək. Amma...

Sentyabrın 27-də işğalçı erməni faşistləri tərəfindən Azərbaycanın Füzuli, Cəbrayıl, Tərtər, Ağdam, Ağdərə istiqamətlərində Milli Ordumuzun mövqelərini iriçaplı silahlardan, ağır artilleriyadan atəşə tutulanda İntiqam "öncə Vətən" deyib dərhal hərbi hissəyə dönməyə qərar verdi. Həyat yoldaşı Sifayi xanım deyir ki, bizimlə vidalaşanda İntiqam Kərbəla şəhidi Həzrət İmam Hüseynə salavat və salam gətirdi. Sanki müqəddəs bir yola - əbədiyyət yoluna çıxdığını bilirdi. Bilirdi ki, bu müqəddəs YOL onu Qarabağa - şəhidlərimizin qisasını almağa aparır. Bu yol mərdlik, cəsurluq, vətənpərvərlik yolu idi. Bu yol qəhrəmanlığa və şəhidliyə yüksəliş idi... Qatıldığı hərbi hissə əks-hücum zamanı düşmənin canlı qüvvəsini və döyüş texnikasını məhv edə-edə Füzulinin, Cəbrayılın bir neçə kəndini, strateji yüksəklikləri azad etməyə nail oldu. Qaraxanbəyli kəndində son döyüşündən qabaq İntiqam qaynı Kamran Əbilova zəng edib: "Bu savaş ölüm-qalım savaşıdır, nəyin bahasına olursa, olsun torpaqlarımızı geri almalıyıq, əgər şəhid olsam, uşaqlar sənə əmanət olsun..." demişdi. Qardaşı Sədinin dediyinə görə, İntiqam sentyabrın 29-da sübh namazından sonra şəhadətə qovuşub.

### ŞƏHİD OĞLUNA LAYLA ÇALAN HƏQİQƏT ANA...

Həqiqət Şıxverdi qızının boya-başa çatdırdığı 4 oğlunun hər biri Vətənə övladlıq borcunu sədaqətlə yerinə yetirmişdi. Şəhid balası son mənzilə yola salınan o payız günü göz yaşlarından köynək geyən ana layla deyirdi. O gün Həqiqət özü sanki anası ağlayan Vətən idi... İntiqamın beşiyinin başında çaldığı layla ilə şəhid balasını yola salırdı:

*Laylay dedim, can dedim,*
*Yuxudan oyan dedim...*

İntiqamın doğma övladlarından nigaran RUHU da ana laylasının sehrində rahatlıq tapırdı. O gün qəhrəman İntiqamın nəşi Vətən yoluna çıxdığı doğma Köçəklidə "Şəhidlər ölməz, Vətən bölünməz!", "Qarabağ Azərbaycandır!", "Ən böyük əsgər, bizim əsgər" nidaları altında uğrunda canını fəda etdiyi torpağa əmanət edildi. Böyük izdihamla keçirilən dəfn mərasimində baş gizir İntiqam Abbasovun tabutunun büküldüyü Azərbaycan bayrağını Masallı rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov şəhidin məktəbli oğlu Əli Abbasova təqdim edəndə dedi: "Sizin atanız Vətən uğrunda şəhid olub. Onun ruhu qarşısında hər birimiz baş əyirik." Əli müqəddəs bayrağı öpərək gözlərinin üstünə qoydu. Artıq İntiqam təkcə öz övladlarının yox, boy atdığı Köçəkli kəndinin adını dillər əzbəri eləmişdi. Bəli, Vətən şəhid övladlarının hesabına yaşayırsa, deməli onu göz bəbəyi kimi qoruyanlar var. Azərbaycanın ərazi bütövlüyü uğrunda minlərlə Vətən oğlunun sayəsində qazandığımız Qələbədə baş gizir İntiqam Abbasovun da payı vardı. Bu gün hər birimiz Vətən torpaqlarımızın azadlığı yolunda canını əsirgəməyən İntiqam kimi igidlərə borcluyuq... Şəhid məzarının önündə deyildiyi kimi, hər bir Azərbaycan gənci öz qəhrəmanlarını tanımalı, onların keçdiyi həyat yolunu öyrənməlidir...

### İNTİQAMIN ÖMRÜNÜN DAVAMI OLAN XATİRƏLƏR...

Millət vəkili Məşhur Məmmədovun köməkçisi Hekayət Nəzərovla Köcəkli kəndində olarkən şəhidin ailə üzvləri ilə görüşdük, oğlu şəhid olandan bir neçə gün sonra infarkt keçirmiş Həqiqət ananı kənd tibb məntəqəsinin həkimi Fəzail Mehdiyev müayinə edirdi. İntiqam barədə xatirələri



ni danışmaq nə qədər ağır olsa da qardaşları Əlirza, Sədi və Ramin onunla fəxr etdiklərini söylədilər. Birinci Qarabağ müharibəsinin iştirakçısı olan Əlirzanın oğlu Zaur Əhədli də Vətən müharibəsində başından qəlpə yarası almışdı.

İntiqamın oğlu Əli atası ilə özünün həyat hekayəsini bizə qürur hissi ilə danışır: "Sinif yoldaşlarıma həmişə atamın məni hərbi döyüş maşınlarına baxmağa apardığından bəhs edərdim. Atam dəfələrlə Bakıda Azadlıq meydanında keçirilən paradlarda öz hərbi döyüş maşını ilə öndə gedərdi..."

...İşdən evə gələndə namaz qılıb, ibadət edəndən sonra övladlarını öpüb-oxşayanda İntiqam onlara başlarını dik tutmağı tövsiyə edərmiş. Bir də həyat yoldaşına son vaxtlar tez-tez deyərmiş ki, əgər həlak olsam, məni atamın məzarının yanında dəfn etdirərsiniz... Şəhidin tələbə qızı Xədicə təhsil xərclərinin Masallı Təhsil Fondu tərəfindən ödəniləcəyini razılıqla dilə gətirdi. Bildirdi ki, ali təhsil müəssisələrində pedaqoji təhsil alan imkansız və şəhid ailələrinin qızlarına fondun maddi və mənəvi dəstək göstərməsi alqışa layiqdir. Xədicəyə "Şah İsmayıl" kitabını hədiyyə etdik, çox sevindi: "Mən Azərbaycan tarixini, Şah İsmayıl haqqında yazılanları həvəslə oxuyuram" dedi. İntiqamın kiçik qardaşı Ramin isə dedi ki, Köçəkli kəndində şəhidlərin xatirəsinə abidə kompleksi inşa olunur. Tikintisi kənd xeyriyyə cəmiyyətinin təşəbbüsü və xeyirxah insanların köməyi ilə reallaşan abidədə kəndin bütün şəhidlərinin adları və şəkilləri həkk olunacaq.

Onu da qeyd edək ki, Masallı şəhərinin mərkəzində və kəndlərində Birinci və İkinci Qarabağ müharibəsinin şəhidlərinin adlarının əbədiləşdirilməsi və xatirələrinə ucaldılan abidə kompleksləri onların ruhuna hörmət və ehtiramın təcəssümüdür. Əbədiyyətə qovuşmuş igid və qəhrəman döyüşçülərimizin xatirəsinə ziyarət tutulması onların doğmalarının və bütün rayon sakinlərinin böyük razılığı ilə qarşılanır.

**Nurəddin Muğanlı, *"İki sahil"***